
Həyatda insan hər şeyi öyrənir,
iki keyfiyyətdən başqa: sədaqət və cəsarət.
Bu keyfiyyətlər insanın qanında olur!
ÜMUMMİLLİ LİDER
HEYDƏR ƏLİYEV

ADPU-nun 18 iyul 2024-cü il tarixli Elmi Şuranın iclasının 9 saylı protokoluna əsasən

---

Uşaqlar üçün "Balaca Tacirlərin Macəraları" dərsliyi Azərbaycan Respublikası Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin sifarişi və Paşa Holding-in dəstəyi ilə KOB-lar üçün İnsan İnkişafı Forumu və Platforması layihələri çərçivəsində Milli Təhsil Texnologiyaları Mərkəzi, Azərbaycan Dövlət Pedaqoji Universiteti, Azərbaycan Tibb Universiteti və İnkişaf Korporasiyasının birgə işçi qrupu tərəfindən hazırlanmışdır:

KOBİA
Azərbaycan Respublikasının
Kiçik və Orta Biznesin
İnkişafı Agentliyi

PAŞA Holding

AZƏRBAYCAN DÖVLƏT PEDAQOJİ UNİVERSİTETİ

Azərbaycan
Tibb Universiteti

MİLLİ TƏHSİL TEXNOLOGİYALARI MƏRKƏZİ

İNKİŞAF KORPORASİYASI

## İşçi qrupun rəhbəri

Xalidə Aydın qızı Həmidova - ADPU-nun baş müəllimi, p.ü.f.d., kitabın elmi redaktoru, **Sağlam Təhsil üzrə mütəxəssis**

## Pedoqoji blok - müəlliflər

Xalidə Aydın qızı Həmidova - ADPU-nun baş müəllimi, p.ü.f.d., Məktəbəqədər və **Sağlam Təhsil üzrə mütəxəssis**

Aidə Aydın qızı Musayeva - Metodist, Məktəbəqədər və **Sağlam Təhsil üzrə mütəxəssis**

## Sosioloji blok

Nigar Faiq qızı Şahhüseynbəyova - Azərbaycan Universiteti, Sosial işin təşkili kafedrasının müdiri, s.ü.f.d., MTTM-in sədri

## Tibb-gigiyenik blok

Şəhla Murad qızı Balayeva - ATU, Uşaq-Yeniyetmələrin sağlamlığı və əmək sağlamlığı kafedrasının müdiri, t.ü.f.d., dosent

## Rəyçilər

Laləzar Kazım qızı Cəfərova - ARTİ-nin böyük elmi məsləhətçisi, dosent, p.ü.f.d., əməkdar müəllim

Nailə Tofiq qızı Hüseynova - ADPU-nun Məktəbəqədər təhsil fakültəsinin dekanı, p.ü.e.d. dosent

Könül Nəriman qızı Həsənova - ADPU-nun filologiya fakültəsinin dekanı, f.ü.f.d.

Zöhrə Qoca qızı İsmayılova - ATU, uşaq-yeniyetmələrin sağlamlığı və əmək sağlamlığı kafedrasının dosenti, t.ü.f.d.

Afaq Camaləddin qızı Hüseyn - UNEC, "Biznesin idarə edilməsi" kafedrası, dosent, i.e.n.

Kİfayət Aslan qızı Xudaverdiyeva - UNEC, "Biznesin idarə edilməsi" kafedrası, dosent

## Tərtibat üzrə blok

Novruz İsa oğlu Səfərəlizadə - Art direktor

Aysun Mansurlu - Səsləndirmə və texniki işlər

## Giriş - Valideynlərə tövsiyə

Müasir dövrdə məktəbəqədər təhsilin əsas məqsədi uşaqlarda yalnız bilik və bacarıqlar formalaşdırmaq deyil, həm də onların sağlam, yaradıcı, müstəqil və sosial yönümlü şəxsiyyət kimi inkişafını təmin etməkdir. Bu məqsədlə hazırlanmış “3–5 yaşlı uşaqlar üçün Sağlam Təhsil texnologiyalarına cavab verən, riyaziyyat və davranış mədəniyyəti standartlarını reallaşdıran inteqrativ dərslik” uşaqların erkən yaş dövründə əqli, emosional və mənəvi inkişafını sistemli şəkildə dəstəkləmək üçün nəzərdə tutulmuşdur.

"Balaca Tacirlərin Macəraları" dərsliyinin bu seriyası Azərbaycan Respublikası Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin sifarişi və Paşa Holding-in dəstəyi ilə KOB-lar üçün İnsan İnkişafı Forumu və Platforması layihələri çərçivəsində Milli Təhsil Texnologiyaları Mərkəzi, Azərbaycan Dövlət Pedaqoji Universiteti, Azərbaycan Tibb Universiteti və İnkişaf Korporasiyasının birgə işçi qrupu tərəfindən hazırlanmışdır. Bu dərslikdə təqdim olunan materiallar Sağlam Təhsil konsepsiyasının əsas prinsiplərinə əsaslanır. Sağlam Təhsil yanaşması uşağın fiziki, psixoloji və sosial rifahını təlim prosesinin mərkəzinə çəkir. Bu modeldə öyrənmə uşağın təbii marağı, oyun fəaliyyəti və yaradıcı düşüncə üzərində qurulur. Dərslik uşaqların hərtərəfli inkişafına şərait yaradan inteqrativ yanaşmanı əsas götürərək riyaziyyat, nitq, ətraf aləmlə tanışlıq, davranış mədəniyyəti və emosional-intellektual inkişaf sahələrini birləşdirir.

Dərsliyin əsas məqsədi — 3–5 yaşlı uşaqlarda ilkin riyazi anlayışların formalaşması ilə yanaşı, onların sosial davranış mədəniyyətinin və sağlam həyat tərzi vərdişlərinin inkişafına təkan verməkdir.

**Bu məqsədlə dərslik aşağıdakı istiqamətləri əhatə edir:**

• Riyazi təfəkkürün inkişafı: sayma, ölçmə, müqayisə, təsnifat və məkan təsəvvürlərinin oyun vasitəsilə formalaşdırılması;
• Davranış mədəniyyəti: qarşılıqlı hörmət, paylaşma, qaydalara əməl etmə və empati hissinin tərbiyəsi;
• Sağlam həyat tərzi: hərəkət, düzgün qidalanma və gigiyena vərdişlərinin oyun və fəaliyyətlərlə inteqrasiyası;
• Əqli və emosional inkişaf: uşağın öz fikrini ifadə etməsi, duyğularını tanıması və idarə etməsi üçün şəraitin yaradılması.

Dərslikdə 18 hekayə üzrə tapşırıqlar və QR kod verilmişdir. Bu QR kod vasitəsilə bütün hekayələr obrazlı şəkildə canlandırılmışdır. Bu da vəsaitin daha da interaktiv xarakterini artırı. Dərslikdəki tapşırıqlar oyun texnologiyaları, problemli situasiyalar, təcrübə və müşahidə fəaliyyəti, eləcə də sensor və kiçikmotor bacarıqları üzərində qurulmuşdur. Bu yanaşma uşaqların öyrənməyə marağını artırır, onları fəal düşünməyə və müstəqil qərar verməyə təşviq edir. Hər bir mövzu uşağın yaş səviyyəsinə və fərdi inkişaf tempinə uyğun şəkildə tərtib edilmiş, müəllim və valideynlər üçün metodik tövsiyələrlə dəstəklənmişdir.

İnteqrativ dərsliyin mühüm cəhəti ondan ibarətdir ki, burada riyaziyyat yalnız abstrakt bilik sahəsi kimi deyil, uşağın gündəlik həyatı və davranışı ilə üzvi şəkildə əlaqələndirilir. Uşaq əşyaları sayarkən, ölçərkən və ya qruplaşdırarkən həm də nizam, məsuliyyət, paylaşma və əməkdaşlıq kimi dəyərləri mənimsəyir. Bu, tədris prosesini “öyrənmək üçün yaşamaq” prinsipindən “yaşayaraq öyrənmək” prinsipinə keçirir.

Dərsliyin tətbiqi zamanı müəllim uşağın öyrənmə prosesində bələdçi, müşahidəçi və dəstəkçi rolunu oynayır. Valideynlər isə uşağın gündəlik fəaliyyətində bu bilik və bacarıqları təkrar etməklə, övladlarının sosial və emosional inkişafına töhfə verə bilərlər. Beləliklə, tədris prosesi məktəb və ailə arasında qarşılıqlı əməkdaşlığa əsaslanır.

Bu dərslik milli dəyərlər təhsilin əsasını təşkil edərək, biznes və davranış mədəniyyətinin inkişafına da təsir göstərir. Dövlətimizin bayraq dəyərlərinə uyğun formalaşdırılan “Birgə Kod” biznesdə davranış mədəniyyətini yönləndirir və ölkənin iqtisadi inkişafına xidmət edən əsas prinsipləri əks etdirir. 3–5 yaşlı uşaqlar üçün öyrənmə prosesini əyləncəli, sağlam və məqsədyönlü şəkildə təşkil etməyi hədəfləyirərək riyaziyyatla davranış mədəniyyətinin inteqrasiyası uşağın həm intellektual, həm də mənəvi dünyasının harmonik inkişafına şərait yaradır. Əminik ki, bu dərslik tərbiyəçi-müəllim və valideynlər üçün etibarlı və praktik bir tədris vasitəsinə çevriləcək, uşaqlarda sağlam düşüncə, düzgün davranış və ömürboyu öyrənmə motivasiyasını formalaşdıracaq.

## İnsan inkişafında multidisiplinar yanaşmanın əhəmiyyəti və zəruriliyi

İnsan inkişafındakı kompleks problemlərin həllində multidisiplinar yanaşmaya ehtiyac var. Çünki insan inkişafı çoxşaxəli, dinamik prosesdir və müxtəlif sahələrdən təsirlənir. Məsələn, **psixologiya və fiziologiya** birbaşa insanın zehni və fiziki vəziyyətini izləyir, **pedaqogika** isə təhsil və öyrənmə vasitəsilə insanın inkişafına kömək edir. **Sosiologiya**, cəmiyyətdəki davranışları və sosial əlaqələri anlamağa imkan verir, insan təcrübəsinə təsir edən sosial rollar və gözləntiləri araşdırır. **Gender** yanaşması "Bərabərlik eynilik deyil" prinsipinə əsaslanır və cinslər arasındakı bioloji fərqləri qəbul etməklə yanaşı, qızların və oğlanların bərabər imkanlarla inkişafını təmin etmək üçün onların spesifik ehtiyaclarını nəzərə alır. **Tarix və din** sahəsindəki mütəxəssislər, keçmişin və mədəniyyətin insan davranışlarına, dəyərlərinə və milli kimliyin formalaşmasına təsirini araşdırmaqda mühüm rol oynayırlar. **İnsan resursları** mütəxəssisləri isə iş yerində insan münasibətlərini və təşkilati dinamikaları idarə etməklə yanaşı, əmək mühitinin keyfiyyətini yüksəltməyə çalışırlar.










**Milli təhlükəsizlik** sahəsi isə siyasi, sosial, mənəvi, iqtisadi, hərbi və ekoloji təhlükəsizliyin təmin edilməsinə yönəlib, çünki insan inkişafı və milli təhlükəsizlik bir-birinə sıx bağlıdır və birinin vəziyyəti digərinə birbaşa təsir göstərir.

Belə bir yanaşma problemlərin həlli üçün müxtəlif sahələrin təqdim etdiyi perspektivlər arasında balans qurmağa imkan verir və bu da daha hərtərəfli və dayanıqlı həll yollarının tapılmasını təmin edir. Bu yanaşma problemləri təkcə bir aspektdən deyil, daha geniş və dərin bir prizmadan qiymətləndirərək, inkişafın hərtərəfli dəstəklənməsini mümkün edir.


***Azərbaycan Dövlət Pedaqoji Universitetinin rektoru, professor Cəfər Cəfərov***

# #BirgəKod

Güclü • Mərd • Təşkilatlanan • Yaradıcı • Müdrik • Haqbilən • Ləyaqətli • Mütərəqqi

## 6

- Fədakar
- Dürüst
  C25 İntegrity
- Cəsarətli
  C25 Bravery
- Mübariz
- Prinsipial
  IBP Principled
- Yaxşılıqlara dəvət edən və pisliklərdən çəkindirən

## 6

- Fiziki mədəniyyətə malik-fiziki cəhətdən sağlam
  IBS 36 Gross motor skills, IBS 36 Fine motor Skills
- Fiziki sağlamlığını və tətbiqi bacarıqlarını inkişaf etdirən
  İBS 36 Healthy Lifestyle
- Emosional zəkalı
  D10 Resilience, stress tolerance and flexibility
- Özünə əmin
  İBA12 Confidence
- İradəli
  C25 Persistence, C25 Self-Regulation
- Nikbin
  C25 Hope, C25 Humor

## 10

- Məqsədyönlü
  TMA Result Orientedness
- İntizamlı
  TMA Discipline, TMA Planning and Organizing
- Müstəqil
  TMA Independence
- Təşəbbüskar
  TMA İnitiative
- Tədbirli
  IBS36 Safety
- Əməkdaşlıq etməyi bacaran
  TMA Cooperation
- Məsuliyyətli
  TMA Accountability
- Lider
  D10 Leadership and social influence
- Ünsiyyətcil
  TMA Negotiating
- Çalışqan (əməksevər, zəhmətkeş)
  C25 Vitality

## 5

- Özünü inkişaf etdirən
  TMA Self Development
- Çevik uyğunlaşan
  TMA Adaptability
- Geniş maraq dairəsi olan
  C25 Curiosity
  D10 Technology use, monitoring and control
  D10 Technology design and programming
- Tələbyönümlü
  TMA Customer Orientation
- Sosial mədəniyyətə malik
  TMA Social Awareness

## 8

- Tədqiqatçı
  D10 Active learning and learning strategies
- Problemləri kompleks həll edən
  D10 Complex problem solving
- Açıq fikirli
  C25 Open mindedness
- Yaradıcı təfəkkürlü
  D10 Creativity, originality and initiative
- Nəzəri təfəkkürlü
  D10 Reasoning, problem-solving and ideation
- Tənqidi təfəkkürlü
  D10 Critical thinking and analysis
- Praktik təfəkkürlü
  IBS 36 Application
- Məntiqi təfəkkürlü
  D10 Analytical thinking and innovation

## 11

- Etibarlı (Güvənli, Sadiq)
- Nəcib
- Estetik mədəniyyətə malik
- Vicdanlı
- Ədalətli (Adil)
  C25 Fairness
- Təvazökar
  C25 Humility and Modesty
- Xeyirxah
- Səxavətli
- Mərhəmətli
  C25 Kindness, C25 Forgiveness and Mercy
- Qayğıkeş
  C25 Love
- Nəzakətli (xoşrəftar - etik qaydalara riayət edən)
  IBS36 Code of Behaviour

## 6

- Mötədil
  IBP Balanced
- Uzaqgörən
  C25 Prudence, C25 Perspective
- Dəyər verən və faydalanan
  İBA12 Appreciation
- Özünü qiymətləndirən
  C25 Assesment and Application
- Sosial institutları (ailə, təşkilat) anlayan
  TMA Organization sensitivity
  TMA Political sensitivity
- Münaqişələri həll edən
  TMA Conflict Management

## 18

- Rəhbərin haqqını təmin edən
  K18 Sadiqlik-loyallıq
- Multikultural mədəniyyətinə loyal
  İBA 12 Tolerance
- Vətənin haqqını təmin edən
  C25 Citizenship
- Ekoloji mədəniyyətə malik
- Vətənə xidmət edənlərin haqqını bilən və təmin edən
  K18 Sadiqlik-loyallıq
- Yaradanın haqqını təmin edən
  C25 Spirtuality, C25 Gratitude, C25 Appreciation of beauty and excellence
- Hüquqi mədəniyyətə malik
- Azərbaycan dəyərlərinə malik olanların haqqını təmin edən
- Valideynin haqqını təmin edən
- Tabeçiliyində olanların haqqını təmin edən
- Həyat yoldaşının haqqını təmin edən
- Ehtiyaclıların haqqını təmin edən
- Övladın haqqını təmin edən
- Alimlərin, müəllimlərin və elmin haqqını təmin edən
- Qohumların haqqını təmin edən
- Böyüklərin və kiçiklərin haqqını təmin edən
- Qonşuların haqqını təmin edən
- Qonağın haqqını təmin edən

**Mədəniyyətimiz**
Bayrağımızın
Rənglərindədir

**Bayrağımızı**
Əməllərdə
Yaşadaq!

# Mündəricat


Dərs 1 Giriş - Valideynlərə tövsiyə

Dərs 2 Emosional zəkalı Sehirli Güzgü ........ 10-11

Dərs 3 Özünə əmin Camalın Robotları ........ 12-13

Dərs 4 Müstəqil Mehriban dostlar ........ 14-15

Dərs 5 Nikbin Cavadın velosipedi ........ 16-17

Dərs 6 Ünsiyyətcil İncinin macərası ........ 18-19

Dərs 7 Əməkdaşlıq etməyi bacaran Sehrli qala ........ 20-21

Dərs 8 Ünsiyyətcil Ünsiyyətcil Ziya ........ 22-23

Dərs 9 Çalışqan (əməksevər, zəhmətkeş) Tənbəl Tunar 24-25

Dərs 12 İntizamlı Zərifənin gəlinciyi ........ 26-27

# Mündəricat


Dərs 13 Tədqiqatçı Qarışqa yuvası ........ 28–29

Dərs 14 İradəli Qırmızı bayraq ........ 30–31

Dərs 15 Nikbin Gülən günəş ........ 32–33

Dərs 16 Məqsədyönlü Nənənin gülləri ........ 34–35

Dərs 17 Tədbirli Zooparkda macəra ........ 36–37

Dərs 18 Yaradıcı təfəkkürlü Uçan qaşıq ........ 38–39

Dərs 16 Problemləri kompleks həll edən Sehirli yumurta 40–41

Dərs 17 Tələbyönümlü Balaca işgüzarlar ........ 42–43

Dərs 18 Çevik, uyğunlaşan Danışan kitab ........ 44–45

Hekayəni oxut

# Sehirli Güzgü

*Emosional zəkalı*

Bir zamanlar dağlar arasında Zümrüd adında gözəl bir kənd var idi. Kəndin ortasında uca Çinar ağacı vardı. Uşaqlar bu ağacın altında oynayar, böyüklər nağıl danışardı.

Bu kənddə üç yaxın dost yaşayırdı: Leyla, Zəhra və Gülər. Onlar hər gün evlərinin yanındakı bağda oynayardılar. Dostların Pıtır adlı dovşanı, Mırmır adlı pişiyi vardı.
Bir gün uşaqlar bağda qaçışırdılar. Birdən Leyla yerə yıxıldı. Balaca daş qırıntısı onu ayağına dəyib yaraladı. Leyla ağlamağa başladı:

– Aaayy, ayağım ayağım...
Dostlar Leylanın səsini eşidib çox qorxdular.
– Qorxma Leyla, mən burdayam – deyə Zəhra qaçıb onu qucaqladı.

Mırmır pişik Leylanın ağladığını görüb əlini yalayırdı.
Gülər isə boynundakı yaylığı çıxarıb Leylanın ayağını bağladı.
Pıtır dovşan Leylanın ayağını pəncəsi ilə sığallayırdı.

Leyla gülümsədi:
– Siz yanımda olanda qorxmuram. Sizi çox sevirəm!
Uşaqlar ağacın altında oturdu. Birdən Gülər torpaqda parlayan bir şey gördü. Bu güzgü idi.





Xırda daşlar yığıb rənglə və istədiyin fiquru düzəlt



Güzgüyə baxanda hər kəs öz hisslərini görürdü.

Zəhra güzgüyə baxıb dedi:

– Bəzən hirslənəndə qışqırmaq istəyirəm. Amma dostlarım inciyər deyə susuram. Zəhra güzgünü Leylaya verdi dedi:

– Qorxanda ağlayıram. Amma siz yanımda olanda güclü oluram - deyə Leyla cavab verdi.

Gülər isə gülümsəyərək dedi:
– Sevinəndə hoppanıb - düşürəm. Kədərlənəndə yaxınlarımla qucaqlaşmaq istəyirəm.

O an sehirli güzgü işıldadı və dedi:
– Siz hisslərinizi tanıyırsınız. Bir-birinizi anlayırsınız. Siz əsl dostsunuz!

Uşaqlar güzgünü qucaqladılar.
Gülər dedi:
– Uşaqlar fikirləşdilər ki, bu sehirli güzgünü saxlasınlar və böyüyəndə sərgilərlərdə nümayiş etdirsinlər.Onlar düşündülər ki,bu güzgü onları dünyada həm tanıdacaq, həmdə çoxlu pul qazandıracaq.Uşaqlar qazandığı pullarla dünyanı gözəlləşdirmək istiyirdilər.Uşaqlar fikirləşirdi ki,dünyadakı bütün uşaqların üzü gülməlidir.
Nağıl burada bitdi.

Amma onların dostluğu və sevgisi heç vaxt bitmədi...

Tapşırıqlar

Hekayəni oxut

# Camalın Robotları

*Özünə əmin*

Camal balaca,mavi rəngli otağında oturub oyuncaqları ilə oynayırdı. O, leqolardan kiçik robotlar düzəldirdi. Camal bəzən elə bilirdi ki, düzəltdiyi robotlar onunla danışır..

-Birdən, pəncərədən dıqqıltı səsi gəldi. Dıqq....,dıqq...,dıqq.

Camal, cəld pəncərəyə tərəf boylandı. Pəncərəni dıqqıldadan hər gün yem verdiyi göyərçini idi. O, göyərçinə leqolarını göstərib dedi:
-Bax yeni robot düzəltmişəm. Necədi?

Göyərçin isə həmişəki kimi öz yemini yeyirdi.
Camalın iki dostu daha vardı. Onlar Asiflə, Musa idi.

Asif kağızdan təyyarələr uçururdu. Musa isə plastik şüşələrdən gəmi düzəldirdi.

Bir gün Asiflə, Musa qaçaraq Camalgilə gəldilər. Onların Camala xəbəri vardı. Parkda hər kəs öz əl işini nümayiş etdirirdi. Uşaqlar istəyirdiki, Camalın robotlarını orada hər kəsə göstərsinlər. O, bu xəbəri eşidib, biraz fikirə getdi və dedi:
— Yaxşı mən razı.





**Rəngli kağızlardan maraqlı oyuncaqlar düzəlt və sərgiyə göndər**



# Tullantı materiallarından robot düzəlt

Camal çoxlu robot düzəltmişdi. Amma parkda robotun biri  işləmədi. Camalın gözləri doldu.

Musa dedi:

— Qorxma, sən bacarıqlısan, bunu düzəldə bilərsən!

Camal cəld robotu təmir etdi.

Dostları sevincək həmin robotuda hər kəsə göstərdilər. İnsanlar robotlara heyran qaldı və hətta bir neçə nəfər onları satın almaq istədi. Uşaqlar robotların bəzilərini satdılar.Satdıqları robotların pulundan yeni leqo alacaqlarını planladılar.

Camal gülümsədi:

— Özümə inandım, ona görə bacardım!
Bir anda Camalın göyərçini gəlib robotun üstünə qondu.Dostlar göyərçini görüb lap məəttəl qaldılar. Deyəsən göyərçində Camalın uğuruna sevinirdi.

Nağılımız burada bitdi, lakin göyərçin hələdə göydə qanad açıb uçurdu.

Tapşırıqlar

Hekayəni oxut

# Mehriban dostlar

*Müstəqil*

Günəşli bir yay səhəri idi. Günəşin şuaları lap Kənanın gözlərinə düşürdü. Sanki günəş Kənanı yuxudan oyatmağa çalışırdı. Kənan gözlərini ovuşdura-ovuşdura donquldandı.

-Ay günəş nə istəyirsən məndən?

Elə bu vaxtı anası onu çağırdı.
-Kənan qalx artıq günortadır. Dostların gəlib səni gözləyirlər. Kənanın, Nihat və Bənövşə adında dostları vardı. Kənan cəld yerindən atıldı

-Axı bu gün onlar gəzməyə gedəcəkdilər. Kənan cəld ayağa qalxdı çarpayısını yığdı. Əl-üzünü yuyub dostlarının yanına getdi. Uşaqlar evlərinin yanındakı bağda piknik etmək istəyirdilər. Bənövşənin Toplan adlı iti vardı. O, Toplanı özü ilə piknikə aparırdı.

Nihat özü ilə su və kökə, Bənövşə meyvə, Kənan isə fincanla örtük götürmüşdü. Onlar birlikdə bağa getdilər. Orada quşlar oxuyur, kəpənəklər uçurdu. Bağda çoxlu meyvə ağacları vardı. Uşaqlar ağaclardan, alma, armud, ərik yığdılar. Birdən Toplan hürməyə başladı. İt getmək istəmirdi.





## Dostlarınla birlikdə sadə şeylərdən gözəl əşyalar düzəlt

Deyəsən o nəsə görmüşdü. Uşaqlar itlərin ilandan qorxduğunu bilirdilər. Dostlar biraz həyəcanlandılar. İndi biz nə edəcəyik? İlan çox təhlükəlidir. Uşaqlar biraz özlərini toparlayıb, itin hürdüyü tərəfə baxdılar. Birdən otların içindən balaca kirpi çıxdı. Uşaqlar gülüşdülər:

-Bu ki, kirpidir.
Kirpi çox təhlükəsiz heyvandır.

Dostlar birlikdə oturub meyvə yedilər, mahnı oxudular. Bənövşə bağda tapdıqları maraqlı yarpaqlar, çiçəklər və daşlarla balaca bəzək əşyaları düzəldirdi. O, əşyaları düzəltməyi dostlarınada öyrətmişdi. Dostlar qozalalardan bilərziklər düzəlmişdilər.

Onlar düzəltdikləri əşyaları "Dostluq hədiyyələri" adlandırdı. Bu hədiyyələri uşaqlara təqdim edib sevindirdilər.Uşaqlar sonra düşündülər ki, əşyaları "Soyuq əllər, isti ürək" xeyriyyə yarmarkasında sataraq xəstəliklə mübarizə aparan uşaqlara köməklik etsinlər. Onlar arzuların müəllimə və valideynlərinin köməkliyi ilə çatdılar. Kənan gülümsədi və dedi:

— Baxın, biz özümüz hər şeyi bacardıq!

Uşaqlar sevinərək evə qayıtdılar.
Quşlar onları alqışlayır, günəş dostlara gülümsəyirdi.

Tapşırıqlar

Hekayəni oxut

# Cavadın velosipedi

*Nikbin*

Bir var idi, bir yox idi. Qırmızı damlı balaca bir evdə, mehriban bir oğlan yaşayırdı. Adı Cavad idi. Onun ən böyük arzusu velosipedinin olması idi.

Hər səhər pəncərədən boylanıb, dostları Ömərlə Musanın velosiped sürdüyünü izləyirdi. İçindən deyirdi:

— Eh... bir gün mən də yarışa qatılacağam!

Cavad axşamlar qırmızı tutuquşusu ilə oynayardı. Ona deyərdi:

— Tutuquşum, bir gün mənim də velosipedim olacaq, görərsən!

Tutuquşuda Cavadın sözünü elə bil təkrar edirdi.

-Cik ...cik...., bir gün mənim də velosipedim olacaq, görərsən!

Valideynləri Cavadın arzusunu duydular. Ondan xəbərsiz mavi bir velosiped aldılar. Bir gün səhər Cavad oyandı. Hər zamankı kimi pəncərədən baxdı və... gözlərinə inanmadı. Həyətdə mavi velosiped parıldayırdı. Cavad sevincindən qışqırdı:

— Ay sağ ol anaaaa! — deyib velosipedi qucaqladı.





**Sevdiyin quşun şəklini çək**



**Cavad da velosiped sürməyi öyrəndi. Sən nə öyrənmək istəyirsən?**

Cavad cəld dostlarını çağırdı:

— Musaaaa! Ömərrrrr! Baxın, mənim də velosipedim var!

Uşaqlar göl kənarına yığışdılar. Cavad ilk dəfə velosipedə mindi, amma pedalı fırlada bilmədi. O, yerə yıxılsada, ağlamadı. Heç kefini pozmadı.

Çünki dostları dedi:

— Qorxma, biz sənə öyrədərik!

Ömər və Musa ona dəstək oldu. Cavad nəhayət velosipedi sürməyi öyrəndi.

O, qışqırdı:

— Mən bacardım! Çünki siz yanımdasınız!

Cavad velosipedi o qədər yaxşı sürməyi öyrənmişdiki, artıq onlar yarışlara qatılırdılar. Həmin yarışlarda qalib olur, qarşılığında müxtəlif hədiyyələr qazanırdılar. Uşaqlar qazandıqları hədiyyələri uşaq evlərinə aparırdılar. Oradakı uşaqların sevinci, dostları xöşbəxt edirdi.

Tapşırıqlar

Hekayəni oxut

# İncinin macərası

*Ünsiyyətcil*

Biri var idi,biri yox idi. Bir İnci adlı qız vardı. Lakin onun dostları yox idi.

İnci bu gündə kefsiz idi. Onun bircə dostu vardı oda pişiyi Duman. Duman axşama kimi İncinin arxasınca gəzir heyy miyoldayırdı. İnci biraz əsəbləşdi və dedi:

-Ay Duman səndə heç danışa bilmirsən. Mən yaman darıxıram.

İnci söhbət etməyi, oynamağı çox sevirdi. Hər səhər o, evin qarşısındakı alma və armud ağaclarına baxar, ağacda oxuyan sarı bir sərçə ilə danışardı. Sərçəyə deyərdi:

— Cik-cik  sərçə, bu gün görəsən dost tapacam?

Bir gün İnci darıxdığından anasıyla evlərinin yanındakı göl kənarına getdilər. Səbətə moruq, çiyələk yığdılar. İnci mahnı oxuyub, meyvələrdən yedi. Dumanda İncinin arxasıca gedirdi. Birdən uzaqdan səs gəldi.

Şəhərdən gələn uşaqlar göl kənarında oynayırdılar.

İnci sevindi:
— Mənimlə oynamağa  dostlar  gəlib!





**Sabah dostunla oynamağa oyun planla**



## Sevdiyin heyvanı təqlid elə

O, əl elədi və uşaqları çağırdı. Birdən iki qız – Nigar və Nərgiz sürüşüb suya düşdü. Onlar qorxularından, qışqırdılar.
İnci cəsarətlə suya atıldı. İnci qızları xilas etdi! Uşaqlar sevindilər.

Uşaqlar birgə moruq və çiyələk yedilər, Dumanla oynadılar, quşlarla mahnı oxudular. İnci artıq tək deyildi. Onun Nigar və Nərgiz adında dostları vardı. İnci yığdığı meyvələrdən dostlarına hədiyyə verdi. Nərgizlə, Nigar öz qolbaqını İnciyə bağışlayırlar.

Bu hadisədən bir neçə il keçmişdi lakin Nərgiz, İnci və Nigar hələdə dostluqlarını davam etdirirdilər. Onlar arada bir-birilərinə valideynlərinin köməkliyi ilə şəkilli məktublar göndərir və vaxtları olanda görüşüb çoxlu söhbət edirdilər. Üç dost qərara gəldilərki, gələcəkdə bu gölün kənarında bir qonaq evi tikdirsinlər və birlikdə gələn qonaqlara xoş istirahətlər bəxş etsinlər. Valideynləri də onları bu fikirlərini dəstəklədilər. Uşaqlar hətta indidən orada üzgüçülük, rəsm, şahmat dərsləri verəcəklərini planladılar. Tikdirəcəkləri evə "Dostluq Evimiz" adlı kiçik bir afişa da düzəltdilər.

Tapşırıqlar

Hekayəni oxut

# Sehrli qala

*Əməkdaşlıq etməyi bacaran*

Yay tətili idi. Mikayıl şəhərdə yaman darıxırdı. O, ağlamağa başladı.

-Ata məni kəndə nənəmgilə aparın.
-Axı,mənim orada dostlarım var.Mən kənddə heç darıxmıram.

Valideynləri Mikayılı nənəsigilə apardılar. Nənəsi Mikayılı görüb çox sevindi. O, cəld dostları İlkin və Elşənin yanına qaçdı. Dostlar bir–birinə yaman darıxmışdılar. Mikayıl sevincindən atılıb-düşür, deyib gülürdü. Nənəsinin toyuq –cücəsini yemləyir, itə su verir, pişiyini sığallayırdı.

Səhər üç dost evlərinin yanındakı "Sumuq Qala" ya gəzməyə getdilər. Lakin içəri girə bilmədilər. Qala qapısı böyük idi və kip bağlanmışdı. Mikayıl dedi:
— Bəlkə düymə axtaraq?

İlkin baxdı və dedi:
— Burada bir daş var. Altına baxaq.

Elşən daşı qaldırdı, altından bir kiçik açar çıxdı. Uşaqlar sevincək qışqırdı:
— Açarrrr! Tapdıqqq!

Onlar açarı qapıya taxdılar, amma qapı açılmadı. Bu dəfə Elşənin iti hürməyə başladı" ham-ham" edib bir küncə qaçdı.Uşaqlar onu izlədilər. İt gizli düyməni tapdı.







**Sən də dostlarınla kiçik sərgi təşkil et**

Mikayıl düyməyə basdı, qapı "ccıııığğ" səslə açıldı. İçəridə rəngli işıqlar, şirin meyvələr və gülən oyuncaq ayılar var idi. Uşaqlar buradakı gözəlliyə lap heyran qalmışdılar.

İçəridən bir səs gəldi.
— Afərin uşaqlar siz birlikdə çalışdınız və Sehrli Qalaya girdiniz. İndi nə qədər istəsəniz oynaya bilərsiniz.

Uşaqlar meyvə yedilər, əyləndilər, oyuncaqlarla oynadılar.

Uşaqlar oyuncaqların içindən  işıq saçan bir qab tapdılar. O,qabın içində çoxlu meyvələr vardı. Uşaqlar o meyvələri yedikcə, artırdı. Dostlar qabı götürüb, evə  sevinclə qayıtdılar. Çünki, o meyvələri yeyən uşaqlar çox bilikli olarmış. Uşaqlar qərara gəldilər ki,bu meyvələri bütün ölkənin uşaqları yesin. Onlar  müəllimələrin köməkliyi ilə sərgi təşkil etdilər. Ora gələn uşaqlar o meyvələrdən dadır, uşaqlarla söhbət edirdilər.

Sərginin sonunda müəllimə uşaqlara təşəkkür edir və deyir:
-Birlikdə addım atmaq həm sevic, həmdə güc deməkdir.

Tapşırıqlar

Hekayəni oxut

# Ünsiyyətcil Ziya

*Ünsiyyətcil*

Ziya hər səhər yuxudan oyanan kimi günəşi salamlayar, gülləri sulayar, ağacda mahnı oxuyan quşlarla söhbət edərdi. Onu, yaşadığı kənddə hamı tanıyardı. Çünki,balaca oğlan, hər kəslə ünsiyyət qurmağı xoşlayırdı. Bu kənddə hamı mehriban idi. Amma kəndin insanları çox az danışardılar.

Bir gün kəndə yaxın meşədən qəribə bir səs gəlir. Hamı qorxur. Ziya isə deyir:
— Bəlkə kiminsə köməyə ehtiyacı var? O, meşəyə getməyi qərara alır.

Ziya dostları Cavad, Telman də onunla meşəyə gedir. Meşədə uşaqların qarşısına çoxlu dovşan, dələ və kirpi çıxırdı. Ziya onları sığallayır, yuvalarına baxıb gülürdü. Güllərin üstündə çoxlu kəpənəklər uçurdu. Dostlar kəpənəklərin dalınca qaçışırdılar.

Meşədə bir qarı nənə yaşayırmış. Onun gözəl səsi varmış. O mahnı oxuyanda səsi kəndə yayılarmış. Qarı nənə uşaqların səsini eşidən kimi bayıra çıxdı. Ziya və dostları Telman və Cavadla nənəylə salamlaşıb söhbət etdilər. Kənddə olan əhvalatları nənəyə danışdılar.

Ziyanın səmimiyyətini qarı nənənin xoşuna gəlmişdi. Nənə onlara sehirli su verdi. Bu sudan içən hər kəs daha yaxşı danışar, arzularını bölüşərmiş.







## Qonşulara yardım et

Ziya dostları ilə birlikdə kəndə qayıdırlar. Uşaqlar kəndə qayıdarkən sehirli suyu özləri ilə aparırlar. Yolda gedərkən Telman Cavadla, Ziyaya :

-Əgər biz bu suyu qarşılıqsız versək hamı gəlib içəcək, su tez bitəcək. Bu suyu insanlara yaxşılıq eləmək qarşılığında verək. Kim ehtiyacı olanlara yardım edərsə, bu sudan bir damcı ona verəcəklərdi. Bu xəbəri bütün kənd camaatı eşidir. Bir müddət sonra insanlar yavaş-yavaş dostların yanına gəlir, sudan bir udum içir, danışmağa, ürəklərini açmağa başlayırlar.

Kənddə hamı bir-birinə kömək etməyə başlayır. Orada danışanlar çoxalır, hər tərəfdən gülüş səsləri eşidilir.

Tapşırıqlar

Hekayəni oxut

# Tənbəl Tunar

*Çalışqan (əməksevər, zəhmətkeş)*

Tunar bəsdi yatdın qalx ayağa! - deyə anası onu səslədi. Oyuncaqların hər yerə yayılıb. Onları səbətə yığmaq lazımdır. Tunar tənbəl-tənbəl ayağa qalxdı. Səbəti əlinə alıb yavaşca oyuncaqları yığmağa başladı.

Anası yenidən dilləndi:
-Sən dişlərini fırçalamısan?

Tunar sakit səslə dedi:
-Anacan yox!

Tunar heç işləməyi sevməzdi. Ancaq onun dostları Aysu və Murad bağda işləməyi, meyvə yığmağı, səliqəli olmağı çox sevərdilər.

Bir gün hava yağışlı idi.Tunarın nənəsi uşaqları çağırıb deyir:

— Bu gün alma yığmalıyıq, yoxsa torpaq islanacaq, almalar çürüyəcək.

Aysu və Murad səbət götürüb bağa gedirlər. Tunar deyir:

— Mən bugün oynayacağam!

Bir az keçmiş, yağış başlayır. Tunar qaçıb evə gəlir. Amma yolda ayağı palçığa batır.



**Kağızdan qutu hazırla**



# Almadan şirə hazırla

Paltarı, çəkməsi çirklənir.
— Ayyy amannn! Paltarım kirləndi! -deyə ağlayır.

Aysu və Murad ona gülüb deyirlər:
— Bizimlə birlikdə meyvə yığsaydın, palçığa batmazdın.

Tunar biraz utanır və deyir:
— Sabah mən də gələcəyəm!

Səhəri gün üç dost birlikdə bağa gedirlər. Tunar səbətə alma yığır onu aparıb böyük qablara boşaldırdı. Meyvələri almaq üçün şirə zavodundan gələn maşına dolu qabları yerləşdirirdi. Bu gün Tunar dostları ilə birlikdə zəhmət çəkmişdi.

Axşam nənə Tunar və dostlarının başını tumarlayıb deyir:
— Aferin sizə, uşaqlar! Bax, çalışmaq necə gözəldir!

Nənə onlara bu gün zəhmət çəkdikləri üçün onun qarşılığında müəyyən miqdarda pul verir. Uşaqlar bu gün zəhmətlərinin ilk bəhrəsini aldıqları üçün çox xöşbəxt idilər.

Tunar gülümsəyir və deyir:
— Artıq tənbəl deyiləm, mən də çalışqanam!

Tapşırıqlar

Hekayəni oxut

# Zərifənin gəlinciyi

*İntizamlı*

Bir gün Zərifənin atası ona bir gəlincik aldı. Gəlincik həm gülürdü, həm də ağlayırdı. Zərifə çox sevindi:
— Ata, çox sağ ol! Mən bu gəlinciyi həmişə belə səliqəli saxlayacam.

Amma Zərifə oyuncaqlarını hara gəldi atırdı. Dostları Zəhra və Xanım da oyuncaqları qırır, bağçaya gecikirdilər.

Səhər xoruz "ququlu-quu" deyəndə Zərifə əsəbləşdi:
— Nədi, qoymursan ki yatım! Bir az da yatım, bağçaya sonra gedərəm...

Zərifə bu gün də bağçaya gecikdi, uşaqlar ona güldülər.

Bir gün dostları Zəhra və Xanım Zərifəgildə yeni gəlinciklə oynayırdılar. Onlar gəlinciyin üzünü qələmlə yazdılar, paltarını cırdılar. Zərifə  dedi:
— Eybi yox  atam yenisini alar! — deyib gəlinciyi atdı.

Gəlincik yerə düşəndə ağlamağa başladı.

Dostlar gəlinciyin ağlayan səsini eşidib etdiyi işdən peşman oldular. Söz verdilər ki, bir daha oyuncaqlara pis davranmayacaqlar.





**Sevdiyin oyuncağı düzəlt və yarmarkada sat**




## Otaqda oyuncaq guşəsi yarat

Səhəri gün Zərifə dostlarına dedi:

— Biz gəlinciyi üzünü yazdıq və o ağladı. Gəlin, bir "Oyuncaq evi" açaq. Burada qırılan oyuncaqları təmir edək, paltarlarını tikək, çirkli olanları təmizləyək!

Zəhra dedi:
— Mən sökülən paltarları tikərəm!

Xanım isə dedi:
— Mən cızılmış üzü boyayıb təmizləyərəm!

Uşaqlar balaca bir masa düzəltdilər. Zəhranın anası stolun üstünə "Oyuncaq evi" yazılan lövhə qoydu. Qonşu uşaqlar da öz qırılmış oyuncaqlarını gətirdi. Zərifə və dostları onları sevə-sevə düzəltdilər. Əvəzində uşaqlar onlara təşəkkür etdi və bəziləri kiçik hədiyyələr gətirdi.

Beləcə, uşaqlar həm dostlarına yardım etdi, həm də əməyin,intizamın dəyərli olduğunu anladılar.

Axşam Zərifə paltarlarını qatlayıb şkafa qoydu, gəlinciyini sığalladı, oyuncaqlarını səbətə yığdı və yatdı.

Səhər dostlar bağçaya tez çatdılar. Müəllimə onları görüb sevindi. Uşaqlar bir daha bağçaya gecikmədilər.

Tapşırıqlar

Hekayəni oxut

# Qarışqa yuvası

*Tədqiqatçı*

Günəşli bir gündə uşaqlar parkda oynayırdılar. Yellənçəkdə yellənən, top oynayan uşaqların səsi hər tərəfə yayılmışdı. Muradda dostları Ləman və Arazla parkdaydı. Onlar ağacın kölgəsində oturub söhbət edirdilər.

Ləman birdən yerə baxıb dedi:
— Aaaa, baxın! Böyük bir qarışqa gedir. Onun arxasınca başqa qarışqalar da gəlir.

Murad həyəcanla dedi:
— Gəlin izləyək, görək hara gedirlər?

Uşaqlar sakitcə qarışqaları izlədilər. Qarışqalar bir-birinin arxasınca yerə cığır salaraq irəliləyirdi. Nəhayət, böyük bir qarışqa yuvasına çatdılar.

Ləman dedi:
— Vaaay! Bura onların evi imiş! Görəsən orda nə edirlər?

Uşaqlar böyüdücü ilə yuva tərəfə baxdılar. Qarışqalar yemək daşıyır, yuvalarını təmizləyirdilər. Qarışqalar özlərindən böyük yemləri belində yuvasına aparırdı. Bu uşaqlara çox maraqlı gəldi. Birdən parkdakı uşaqların topu qarışqa yuvasının üstünə düşdü.

Qarışqalar qaçdı, yuva dağıldı. Uşaqlar kədərləndilər.







# Tədqiqatçı olmaq dünyanı daha yaxşı tanımaqdır

Araz dedi:
— Onlara kömək etməliyik!

Dostlar birlikdə yarpaq, daş və torpaqla yeni yuva düzəltdilər. Qarışqalar yavaş-yavaş yuvasına geri dönürdü. Sanki dostlara təşəkkür edirdi.

O gündən sonra uşaqlar hər dəfə parkda oynayanda əvvəl qarışqa yuvasına baxır, “salam, balaca dostlar!” deyirdilər.

Bir gün dostlar qərara gəldilər ki, bu yuvanın ətrafını bağlasınlar. Parka gələn uşaqlara lupa ilə baxaraq qarışqa yuvasını təqdim etsinlər. Beləliklə,uşaqlar ətraf aləmi öyrənir və başqa uşaqlarada öyrədirdilər. Uşaqlar hətta gələcəkdə bir sərgi açıb orada qurutduğu bitgiləri insanlara təqdim etməyi planladılar.

Tapşırıqlar

Hekayəni oxut

# Qırmızı bayraq

*İradəli*

Bağçalar arası "Şən idmançılar" yarışı keçirilirdi. Günel, Lalə, İlqarda müəllimləri ilə birlikdə yarışa hazırlaşırdılar. Onlar bu yarışda "Bayrağı tap" oyunu oynayacaqlardı. Bayraqları ilk tapıb dirəyə sancan bağça qalib olacaqdı.

Nəhayət,yarış günü gəlib çatdı. Hava buludlu olsada hələ yağış yağmırdı. Uşaqlar əllərində şarlar, yarışa gəlmişdilər. Hər kəs həyəcanlı idi.

Lalə əşyaların arasında bayraqlarını görmədi və həyəcanla müəlliməsinə xəbər verdi. İlqar bunu görüb özünü itirdi. Axı, yarışa çox az qalmışdı.

Müəllimə tez uşaqları sakitləşdirdi və dedi:
-Dostlar iradəli olsanız   bu yarışın qalibi olacaqsınız.

Müəllimə uşaqlara 3 çubuq tapmağını tapşırdı. Günelə çubuq axtarmağı, Laləyə qırmızı kağızdan bayraq kəsməyi, İlqara isə bu bayraqları çubuğa yapışdırmağı tapşırdı.

Uşaqlar cəld hədəfə çatmaq üçün yorulmadan müəllimənin dediklərini edib, tezliklə, qırmızı bayraqları hazırladılar.
İlqar gördü ki, digər bağçaların bəzilərində bayraqlar yoxdur.





**İradəli olmaq arzuna çatmağın açarıdır**




## Rəngli bayraqlar hazırla

O, təklif etdi ki, cəld onlara lazım olan rəngdə bayraqlar hazırlayıb həmin bağçalara satsınlar. Uşaqlar bu işin öhtəsindən çox gözəl gəldilər. Müəlliməsi bayraqları rənglərə ayırdı. Bağçalar lazım olan rəngdə bayrağı İlqargildən aldılar.

Yarış başladı və uşaqlar birlikdə qırmızı bayrağı dirəyə sancdılar.

Onlar bağçaya əllərində bayraqlarla qalib olaraq qayıtdılar. Dostlar bayraqlardan qazandığı pulla valideynlərinə və müəlliməsinə çiçək aldılar.

Nağıl dostlarım sizdə hər zaman iradəli olun arzularınıza çatana qədər mübarizə aparın.

Tapşırıqlar

Hekayəni oxut

# Gülən günəş

*Nikbin*

Bir gün Gülşən, Nicat və Aylin parkda çərpələng uçurur, top oynayır, dovşan kimi hoppanaraq yarışırdılar.

Günəş parlayır, ağaclarda quşlar oxuyurdu.Birdən göy üzü tutqunlaşdı, boz buludlar gəldi.Yüngül yağış damcıları düşdü.
— Yağış yağır! – deyə uşaqlar narahat oldular.

Aylin gülümsədi:
— Günəş bizə zarafat edir, gizlənpaç oynayır.

Gülşən sevinərək dedi:
— Gəlin rəqs edək, bəlkə günəş bizi eşidər.

Uşaqlar buludlara baxa-baxa oynayır, əl-ələ verib günəş kimi fırlanırdılar.

Birdən külək necə əsdisə,uşaqların topunu uzağa apardı.
Top suya düşmüşdü. Nicatla, Aylin topun arxasınca qaçdılar.
— Narahat olmayın, biz bacararıq!-deyə Aylin səsləndi.

Gülşən bir budaq tapdı, suyun üzərindən topu çıxartdı. Elə o anda günəş yenidən çıxdı və park işıqlandı. Göy qurşağı buludların arxasından çıxdı. Qarışqalar yenə sıraya düzülüb gəzişdi, sincablar ağaca dırmaşdı.





Uşaqlar sevinib dedilər:
— Gəlin, bu sevinci başqaları ilə bölüşək.

Dostlar günəşin çıxmasına o qədər sevindilər ki, parkda olan uşaqlar üçün oyun sərgiləmək qərarına gəldilər. Onlar analarından xaiş etdilər ki, kardona ''Əyləncəli Oyunlar'' burada yazısı yazssın. Uşaqlar bu yazını görüb yavaş-yavaş plakata yaxınlaşmağa başladılar. Onlar istədikləri oyunu seçir və oynayırdılar. Uşaqlar  birlikdə rəqs edib oynayırdılar. Aylinin anası uşaqların sevincinə baxıb dedi:,
— Hər buluddan sonra, günəş çıxar.



**Əgər sən də kiçik “Əyləncə guşəsi” qursaydın, nələr edərdin?**

Tapşırıqlar

Hekayəni oxut

# Nənənin gülləri

*Məqsədyönlü*

Gözəl bir yay səhəri idi. Günəş gülümsəyir, quşlar oxuyurdu. Gülnar isə quşların səsinə qulaq asırdı.

Ayxan və Murad isə nənələrinin həyətində oynayırdılar. Onlar kələm ləkinin yanında bir kirpi gördülər. Kirpi uşaqları görüb tez qıvrıldı. Uşaqlar maraqla kirpini izləyirdilər.

Nənəsi uşaqlara yağ çörək verib deyir:
— Bu gün qonaqlar gələcək. Həyətdəki güllərim solub... Su isə bağın o başındadır.

Gülnar sevinclə dedi:
— Nənə, narahat olma ! Biz sənin güllərini sulayarıq! Ayxan bir az tənbəl-tənbəl baxıb dedi:
— Axı su arxı çox uzaqdadır...

Murad dedi:
— Gəlin işləri bölək.

Muradla Ayxan su gətirməli, Gülnar gülləri sulamalı idi.

Birdən Murad sürüşüb su arxına düşdü. Kirpi uzaqdan Murada baxıb sanki gülürdü. Onun ayağı biraz suya batmışdı. Gülnarla Ayxan tez gəlib onu sudan çıxartdılar. Murad ayaqqabılarını dəyişib yenidən uşaqlara kömək etdi.





## Düzəltdiyin əşyaları internetdə paylaş və sat

Uşaqlar bir az yorulmuşdular. Lakin bütün gülləri sulamışdılar. Güllər yenidən canlandı, arılar şirin ətirə toplaşdı.

Gülnar bir neçə gözəl güllərdən yığıb güldana qoydu və dedi:
— Qonaqlar baxanda nənəmin güllərinə heyran qalacaq! Bəlkə nənəmizin gülləri beləliklə hər yerdə tanınar, dillər əzbəri olar.

Uşaqlar bu gülləri çoxaldıb gələcəkdə onları satışa çıxarmağı düşünürdülər.Gülnar güllərin şəkillərini çəkib öz kanal saytında paylaşdı.

Axşam nənə həyətə çıxdı. Quşlar cəh-cəh vururdu, güllər başını qaldırmışdı.
— Ay bala, bu nə gözəllikdi?!

Gülnar əlavə etdi:
— Nənə yorulsaqda, tapşırığını yerinə yetirdik!

Nənə sevinc göz yaşları ilə onları qucaqladı.

Kirpi isə yavaş-yavaş uşaqların yanına gəlirdi-sanki dostlara "Əhsən" deyirdi.

Tapşırıqlar

Hekayəni oxut

# Zooparkda macəra

*Tədbirli*

Günlərin bir gözəl səhəri idi.Uşaqlar bağçaya sevinə-sevinə gəldilər. Çünki müəllimə onları zooparka aparacaqlarını demişdi.

Müəllimə günəşdən qorunmaq üçün, uşaqlara yay papaqları payladı. Papaqların üstündə bağçalarının adı yazılmış, loqosunun şəkli çəkilmişdi. Bağçanın adı "Xoşbəxt uşaqlar" idi.

Fidan papağı görüb sevindi:
— Nə gözəl papaqlardır. Bizim bağçamızı hər kəs tanıyacaq!

Nihat balaca qırmızı topunu, Ayan isə oyuncaq ayısını çantasına qoydu. Fidan çantasına alma və banan qoydu. Zooparka çatanda uşaqların sevinci yerə-göyə sığmırdı.
— Aa, baxın! Fil! Burnu çox uzundur!
— Vayyy! Meymun bananı elə tutdu ki, elə bil idmançıdır.

Birdən Fidan dedi:
— Dostlar, baxın! Bəzi qəfəslər açıqdır, amma lentlə bağlanıb. Ora keçmək olmaz. Müəllimə demişdi ki, heyvanlara heç nə atmaq olmaz. Onlar qorxa bilər!

Amma, Nihat bu sözləri dinləmədən, topunu yuxarı atdı.




**Qadağanedici işarə lövhələri hazırla**



**Bildiyin heyvanların adını sadala**

Top-” bup” qəfəsin yanındakı çalaya düşdü. Ora keçmək qadağan idi! Nihat bir az qorxdu:

— Bəlkə topumu götürüm? Birdən şir qarşıma çıxar?

Fidan dedi:

— Yox! Əvvəlcə müəlliməyə deyək. Təhlükəlidir!

Müəllimə  zoopark işçisini çağırdı. İşçi uzun çubuqla topu çıxardı. Nihat dərindən nəfəs aldı.

Ayan fikrə getdi:

— Gələn dəfə topumuzu ipə bağlayaq. Belə düşməz!

Nihat gülümsədi:

—Yox ,mən birdə  topumu çantadan çıxarmayacam!

Uşaqlar bugün təhlükəsizliyin vacib olduğunu anladılar. Zooparkdakı qonaqlar uşaqların hansı bağçadan gəldiklərini artıq bilirdilər. Çünki onların papaqlarında bağçalarının adı vardı. Ertəsi gün bağçaya çoxlu uşaq gəlmişdi. Onlar  zooparkdakı uşaqlar idi.

Tapşırıqlar

Hekayəni oxut

# Uçan qaşıq

*Yaradıcı təfəkkürlü*

Dünən Nərgizin ad günü idi. Anası süfrəni rəngli qablar və qaşıqlarla bəzəmişdi. Nərgizin ad gününə dostları Aysel və Gülçin də gəlmişdi. Dostlar  böyük çəhrayı tortu birlikdə üfürdülər. Nərgiz dostları ilə çox əyləndi.

Axşam oldu. Qonaqlar getdi. Nərgiz nənəsinə kömək edirdi.

Nənə dedi:
— Ay qızım, bu rəngli qaşıqları artıq istifadə etmək olmaz. Bunları atsaq yaxşı olar.

Nərgiz dedi:
— Yox nənə! Bu qaşıq uça bilər!

Uça bilər? - deyə nənə təəccübləndi.

Nərgiz yenidən dilləndi: -Hə,hə uça bilər.

Nənə bu qaşıqa kağızdan qanad yapışdırsam eyni cırcıramaya oxşayar.

Səhər Nərgiz dostlarını çağırdı. Onlara kağızdan qanad kəsməyi öyrətdi. Aysel qayçıdan istifadə edərkən barmağı yaralandı. Uşaqlar qorxdu. Nərgiz tez tibb çantanı gətirdi. Nənə Ayselin barmağını sarıdı.



**Tullantı materiallarından fiqurlar düzəlt**



**Yaradıcı olmaq biznes qurmaq üçün vacibdirmi?**

Sonra uşaqlar işə davam etdilər.Qanadları qaşıqlara yapışdırdılar. Qaşığı pəncərənin yanına qoydular. Külək əsdi...

Qaşıq pırrr edərək havaya qalxdı!

Uşaqlar sevindi:
— Urraaa! Buda bizim cırcıramamızdır.

Nənə gülümsədi:
— Aferin sizə uşaqlar!
Gülçinin ağlına belə bir fikir gəldi.

—Nərgiz bəlkə sən bu plastik əşyalardan düzəltdiyin fiqurları bağçanın bayramlarında sərgiləyəsən?

Bu doğurdanda yaxşı fikir idi.

"İstəsəniz hər iş mümkündür. Yalnız yaradıcı düşünmək lazımdır!"-deyə Nərgizin nənəsi dedi.

O gündən sonra bağçada və rayonda hər kəs Nigarı "Uçan qaşıq" düzəldən qız kimi tanıyırdılar. Nərgizin əşyaları artıq bütün oyuncaq mağazalarında satışdaydı. O,dostları ilə birlikdə yeni oyuncaqlar düzəltməyə davam edir, yeni fikirlər düşünürdülər.

Tapşırıqlar

Hekayəni oxut

# Sehirli yumurta

*Problemləri kompleks həll edən*

Bir var idi, bir yox idi. Böyükdəndə böyük bir qala vardı. Bu qalada balacadanda balaca uşaqlar böyüyürdülər. Burada şirindəndə şirin dostlar yaşayırdı. Sevil-şipşirini, Aylin-ən gözəli, Ömər–lap dəcəli idi.

Bir gün dostlar qalanın həyətində oynayırdılar. Birdən par-par parıldayan böyük bir yumurta tapdılar.
Yumurta elə parıldayırdı ki, sanki günəş şualarıdır.

Uşaqlar təəccüblə yumurtaya baxdılar. Uşaqlar ilk öncə yumurtanın böyük olduğunu görüb onu kəndin mağazasında satmaq istədilər. Onlar yumurtanı satıb yerinə 3 dənə dondurma alacaqlardı. Dostlar fikirləşdilərki, bu yumurtanın qiyməti daha baha olar. Çünki,yumurta çox böyük idi. Sonra yumurtanın üstündə ağac, yuva, quş şəkilini görüb fikirlərini dəyişdilər .

Aylin diqqətlə ətrafa baxdı. Görəsən bu şəkillər bizə nə demək istəyir?-deyə o, fikrə getdi.

Sevil birdən qışqırdı :
-Uşaqlar!!! Tapdım bu ağac yumurtanın üstündəki şəkildir.





**Problemi birlikdə həll edən dostlar hər zaman qalibdir**



## Dostlarınla hansı sirri birlikdə araşdırmaq istərdin?

Ömər dedi:
— Baxın, ağacda yuva var.

Birdən yumurtanın bir hissəsi parıldadı. Uşaqlar sevindi.

— Qaldı quşu tapmağımız.

Birdən yuvadan "cik-cik" səs gəldi.

Sevil dedi:
— Yumurtanı yuvaya qoymalıyıq!

Ömər cəld ağaca çıxmaq istədi. Amma ayağı sürüşdü. Uşaqlar qorxdu. Xoşbəxtlikdən, ona heç nə olmadı. Ömər yenidən qalxdı və yumurtanı yuvaya qoydu.

Birdən yumurta parıldadı, tərpəndi və çatladı. İçindən balaca bir quş çıxdı. Quş cikkildədi və qanad çaldı.

Uşaqlar sevinib oynadılar.

Aylin dedi:
— Biz yumurtanın sirrini birlikdə tapdıq!

Nağıl bitdi, quş uçdu, yumurta sirrini açıldı! Ağacdan üç alma düşdü biri Sevilə, biri Aylinə biri isə dəcəldəndə dəcəlimiz Ömərə.

Tapşırıqlar

Hekayəni oxut

# Balaca işgüzarlar

*Tələbyönümlü*

Uzaq şəhərlərin birində üç dost yaşayırdı. Bu dostların adı Yasəmən, Fərid və Məhəmməd idi. Uşaqlar çox ağıllı və işgüzar idilər.

Onların valideynləri ucqar və dağlıq kəndlərin birində yaşamağa qərara gəldilər. Dostlar artıq kəndə yerləşmişdilər. Valideynləri kəndə yaşamaq üçün müxtəlif iş görürdülər. Uşaqlar hər gün kənddə gəzir, ətrafda baş verənləri, müşahidə edirdilər. Yasəməngilin valideynləri şəhərdən dondurma düzəldən aparatlar gətirmişdilər. Onlar kənddə yaşayan insanlardan süd alır və təbii dondurmalar istehsal edirdilər.

Dostlar isə səhərlər bağçaya gedir,dərslərini hazırlayır, sonra valideynlərinə kömək edirdilər. Bir gün uşaqlar kəndə çox yaxın olan meşədən moruq,çiyələk,qarağat yığmağa getdilər. Onlar meyvələri istehsal etdiyi dondurmaya qatırdılar. Meşədə uşaqlar yolu azmışdılar. Yasəmən qorxudan ağlamağa başladı. Axı, mən valideynlərimin bir qızıyam, mən itsəm onlar tək qalacaq. Dostları Fərid və Məhəmməd onu sakitləşdirdilər. Birdən Fərid  dedi biz yolu ancaq cığırla tapa bilərik. Uşaqlar həmin izlə yola düzəldilər. Az getdilər, üz getdilər gəlib kəndə çıxdılar. Uşaqlar kəndi uzaqdan görüb çox sevindilər.



**Əməksevər uşaq zəhmətinin dəyərini anlayar**



**Bəs sən dostlarınla birlikdə mağazalara nə satmaq istərdin?**

Dostlar başlarına gələn əhvalatı valideynlərinə danışdılar. Uşaqlar siz çox ağıllısınız ki, oradan qayıda bilmisiniz - deyə Yasəmənin atası dedi.

Onlar valideynləri ilə istehsal etdikləri dondurmanı aparır, kənddəki kiçik mağazalara paylayırdılar. Bu onların çox xoşuna gəlirdi. Uşaqlar həm də, pulu necə qazanacaqlarını öyrənirdilər. Artıq kənddə hər kəs bu üç dostu tanıyır və sevirdilər.

Kənd böyükləri uşaqlara çalışqanlığına görə həmişə təşəkkür edirdi:
— Siz əsl gələcəyin istehsalçılarısız.

Tapşırıqlar

Hekayəni oxut

# Danışan kitab

*Çevik, uyğunlaşan*

Böyük şəhərlərin birində kitab sərgisi keçiriləcəkdi. Bütün bağça və məktəb uşaqları sərgiyə dəvətli idi. Ləman, Leyli və Lalədə bu gün çox həyəcanlı idilər. Bağça müəlliməsi onları kitab sərgisinə aparcağına söz vermişdi.

Müəllimə uşaqları sərgiyə apararkən dedi :
– Uşaqlar, biz kitab sərgisinə gedirik. Orada danışan kitablar olacaq!

Uşaqlar təəccübləndi:
–Heç kitabda danışa bilər?

Sərgiyə çatanda hər yer bayramda olduğu kimi bəzədilmişdi. Kitablar, şarlar, oyuncaqlar, nağıl personajları... bura çox maraqlı idi!

Birdən onların qarşısına bir robot çıxdı:
– Salam, uşaqlar!

Uşaqlar əvvəlcə təəccübləndilər, sonra robotla danışmağa başladılar. Robot onların suallarını cavablandırdı.

Müəllimə uşaqları böyük bir ekranın qarşısına apardı:
– Hansı nağılı dinləmək istəyirsiniz?

Cırtdan nağılı- deyə uşaqlar müəlliməsindən xaiş etdilər.







**Əgər sən də bir kitab icad etsəydin, o necə olardı?**

Ekranda Cırtdan göründü və danışmağa başladı. Birdən Ləman bilmədən ekrana toxundu və ekran söndü. Uşaqlar ekranın xarab olduğundan qorxdular. Leyli tez kitabxanaçı xanımı çağırdı. Lalə baş verəni ona izah etdi və dedi:
– Bu, təsadüfən oldu...

Birdən ekran yenidən işə düşdü! Uşaqlar çox sevindilər!

Onlar danışan kitabın nə olduğunu artıq bilirdilər. Dostlar kitabxanaçıdan ekranın necə işlədiyini öyrəndilər. Kitabxanada uşaqlara danışan kitab tərəfindən belə bir təklif gəldi. Dostlar bir nağılı öz səsləri ilə danışacaq, danışan kitab isə onu səsləndirəcəkdi.

Beləliklə, hər kəs balaca dostları tanıyacaqdı.

Müəllimələri balacaları qucaqlayır və deyir:
-Siz artıq balaca işgüzarlarsınız.

Uşaqlar sərgidə çox gözəl gün keçirdilər. Sərgi bitsədə, oradakı dostluqlar davam etdi.

Tapşırıqlar